**UOT 1:82**
**https://doi.org/10.59849/2218-4783.2025.2.245**

**SƏBİNƏ DÜNYAMALIYEVA**

# NİHİLİZM FƏLSƏFƏSİNİN XÜSUSİYYƏTLƏRİ VƏ ONUN ƏDƏBİ ƏSƏRLƏRDƏ İZLƏRİ

*XIX əsr inteqrasiyalar dövrüdür. İstər elmlərin, istərsə də coğrafi dəyərlərin bir-biri ilə vəhdət təşkil etdiyi zaman dilimidir. Fəlsəfənin yaradıcılıq sahələri ilə əlaqəsi bu dövrdə Tanrı meyarını inkar edən nihilizm fəlsəfəsinin ədəbi fikrə təsirində daha çox diqqət çəkirdi. Bu nəzəriyyənin ən tanınmış nümayəndəsi olan Fridrix Vilhelm Nitsşe "Zərdüşt belə deyirdi", "Güc həvəsi" əsərlərində mövcud olan 3 ana fikir – Güc iradəsi, Tanrının ölümü, Üst insan konsepsiyası onu nihilizm fəlsəfəsi ilə bağlayırdı.*

*Ədəbiyyatda bu "izm"lə ilk dəfə rus şairi İvan Sergeyeviç Turgenevin 1862-ci ildə yazdığı "Atalar və oğullar" əsərində qarşılaşırıq. Əsərdəki Bazarov obrazı Qərbin nəzəri-estetik prinsipinə əsasən, mətnaltı məna ilə deyil, birbaşa yazıçı tərəfindən açıq şəkildə nihilist kimi yaradılmışdır. Bazarov obrazı nihilist obraz kimi yaradılsa da, Bazarovun nihilizmi Nitsşe nihilizmindən fərqlənirdi. Bazarov Nitsşe kimi hər şeyi inkar edib, dini və mənəvi dəyərlərin mənasızlığını sübut etməyə çalışmasına baxmayaraq, bu obraz Nitsşedən fərqli olaraq heç bir alternativ göstərmədən sadəcə inkar edirdi, yəni əsərdə ümumi inkar – sosial nihilizm təqdim olunurdu. Əsərin sonunda Bazarovun insani hissinə-sevgiyə yenilməsi və ölməsi Turgenevin nihilizm ideyalarının Nitsşenin fəlsəfi nihilizmindən fərqli olaraq daha real olduğunu nümayiş etdirir.*

**Açar sözlər:** *nihilizm, Nitsşe, güc iradəsi, fövqəlinsan, Bazarov.*

Fəlsəfə idrak prosesinin ümumi qanunauyğunluqlarını əks etdirən elm olmaqla elm və yaradıcılıq sahələri ilə qarşılıqlı əlaqədə yaranıb inkişaf etməkdədir. İdrakla bilavasitə bağlılığı onun ədəbiyyat, sənətlə yaxınlığını şərtləndirir. İngilis ədəbi tənqidçisi F.Şeftsberi 1709-cu ildə "Moralistlər" dialoqunda yazırdı ki, "...ədəbi-fəlsəfi şüur cəmiyyətdə ölçü və meyarları müəyyən edən vasitə olmalıdır" [9, s. 421]. Tarixi inkişaf boyu ədəbiyyat və fəlsəfənin vəhdəti cəmiyyətin dünyagörüşündə fərqli baxış bucaqları açır. Məsələn, Antik və orta əsrlər ədəbiyyatına Aristotelin fəlsəfi fikirlərinin təsiri danılmazdır. (Xüsusilə "Ritorika", "Poetika" əsərləri). Tarixdəki sosial-siyasi hadisələr də ədəbi nəzəri prosesi və fəlsəfi fikri formalaşdıran özüldür.

XIX əsr inteqrasiyalar dövrüdür. İstər elmlərin, istərsə də coğrafi dəyərlərin bir-biri ilə vəhdət təşkil etdiyi zaman dilimidir. XIX yüzillikdə ədəbiyyat, tarix, liberal fəlsəfi fikirlərin, həmçinin təbiətşünaslığın bir-birinə təsiri fikir tarixinin yeni yönlərinin yaranmasına səbəb oldu. Bu dövrdə təbiət elmlərindəki irəliləyişlər – 1800-cü ildə elektrik, 1830-cu ildə dəmir yolu xəttinin yaradılması, 1876-cı ildə telefonun ixtira edilməsi, ümumiyyətlə kimya, fizika, biologiya elmlərindəki yeniliklər insana orta əsrlərdən fərqli sayentisizm (Latınca elm deməkdir. Bu "izm"də cəmiyyət hadisələrinə dəqiq elmlər tipindən yanaşılmadır) ilə yanaşma tələb etdi. Fransız naturalizminin nümayəndəsi Emil Zolya yazırdı: "Bir fikirləşin! Biz dəmir yolu və elektrik teleqrafın qarşımızda sonsuz perspektivlər açdığı dövrdə yaşayırıq. Elə bir həyəcanlı və əhəmiyyətli dövrdə ki, insan ağıl, zəkası yeni həqiqətin özülünü qoyur. Üfüqlər genişlənir, səmanı nurlandıran işıq parlayır" [8, s. 15].

Elmi təfəkkürün liderlik etdiyi bu dövrdə bədii əsərlərdə ədəbiyyatın obyekti olan insana, onun davranışlarına müxtəlif "izm"lər ilə yanaşılırdı. XVIII əsrin sonu XIX əsrin başlanğıcında alman ədəbiyyatında Fransız burjua inqilabının, subyektiv idealizm nəzəriyyəsinin, Fransa ədəbiyyatında 1830-cu il inqilabının, russoçuluğun təsiri ilə romantizm cərəyanı yarandı. XIX əsrin sonlarında isə sənayeləşmənin inkişafı, fəlsəfədə determinizmin, darvinizmin təsiri ilə ədəbiyyatda naturalizm ədəbi cərəyanı meydana gəldi. Fəlsəfənin, təbiətşünaslığın ədəbi fikrə təsiri yeni bir fəlsəfi "izm" kimi ortaya çıxan nihilizmdə daha artıq görülməyə başladı.

Bu dövrdə elmi tərəqqinin, təbiətşünaslığın inkişafı və bu inkişafın fəlsəfə və ədəbiyyata nüfuzu ədəbiyyatda orta əsr dünyagörüşündə üstünlük təşkil edən yaradan, Allah mütləqliyini müəy-

yən qədər zəiflətdi və fəlsəfədə, ədəbiyyatda analitik təfəkkür, yəni usun, elmin gücünün təsirini gücləndirdi. Bu dövrdə yaranan fəlsəfi təlimlər, məsələn Kantın idrak fəlsəfəsi rasionalizm və irrasionalizmin vəhdətini, Feyerbax Fixte "məhəbbət dini", "Zəka-universal məhəbbətdir" ideyasını və ya Tanrı meyarının tamamən inkar edən – nihilizm fəlsəfəsi yeni dövr fəlsəfəsinə yeni yön verdilər.

Nihilizm sözündəki "nihil" heç deməkdir. Ona görə də bu "izm" ədəbiyyatlarda heçliyin nəzəriyyəsi kimi də bilinir. Nihilistlər tarix boyu mövcud olan əxlaqi, siyasi dəyərlərin əhəmiyyətsizliyini göstərməyə çalışır, onlara şübhə ilə yanaşır, dini insan azadlığına qarşı bir ünsür kimi qiymətləndirirdilər.

Nihilizm adlanan fəlsəfi fikir alman alimi Fridrix Nitsşenin adı ilə tanınsa da, əslində bu "izm"in yaradıcısı alman filosofu Fridrix Henri Yakobidir (1743-1819). Ancaq nihilizmin əsasını təşkil edən şübhəçilik fəlsəfəsi, yəni skeptisizm ilə e. ə. IV əsrdə yaşamış yunan filosofu Pirronun fəlsəfi fikirlərində qarşılaşırıq. Nihilizm fəlsəfəsi ifrat skeptisizmdir.

Bu nəzəriyyənin ən tanınmış nümayəndəsi isə polyak əsilli alman filosofu Fridrix Vilhelm Nitsşedir (1844-1900). "Zərdüşt belə deyirdi", "Dəccal", "İnsani həddindən artıq insani", "Güc həvəsi" əsərləri ilə həyati hadisələrə fərqli baxış bucağı ilə yanaşan alman alimi öz ruhi çöküşünü əsərlərində göstərirdi. "Onun fəlsəfəsi iki əsrin qovuşuğunun törətdiyi mürəkkəb sosial proseslərin, nəzəri və ideoloji paradoksların, psixoloji və sosial konfliktlərin məhsuludur" [6, s. 154].

Nitsşeni əsərlərində onu nihilizm ilə bağlayan bir neçə ana fikir var. Fərman Qəhrəmanov yazırdı ki, "F.Nitsşe lirik, poetik qəlbə malik idi; onu narsiss də hesab etmək olar, çünki özünə və yaradıcılığına ifrat dərəcədə aludə idi" [6, s. 155]. Nitsşeni nihilizmlə bağlayan ana fikirlər aşağıdakılardır:

1. Güc iradəsi və ya güc fəlsəfəsi;
2. Tanrının ölümü;
3. Üst insan konsepsiyası;

Bu fikirlər bir-biri ilə sistematik şəkildə bağlıdır və biri digərini izah edir. Nitsşe "Güc iradəsi" (Bu əsər Nitsşe öləndən sonra onun notları əsasında bacısı Elizabet tərəfindən çap edilmişdir. Bu əsərə Elizabetin ərinin də düşüncələrinin artırıldığı deyilir. Yəni əsərdəki bütün fikirlərin Nitsşeyə aid olmağı ziddiyyətli məsələdir) əsərində nihilizmdən bəhs edir və bu "izm"in ilk ünsürlərinin indi yaranmasına baxmayaraq, 200 il sonraya aid olduğunu yazırdı. Güc iradəsi "bütün dəyərlərin təkrar dəyərləndirilməsinə aid bir sınama" kimi verilir [4, s. 22].

"Dəccal" əsərində filosof qeyd edir ki, bəzi hislər insan oğlunda güc iradəsini azaldır, məsələn acıma hissi. "İnsan acıma duyduğunda, gücündən itirir. Acıma yoluyla, zatən acı çəkmənin kəndisinin yaşama girdiği güc əksilməsi yoğunlaşır, çeşitlənir… yaşamın özünə qaranlıq, problemli bir görünüm verir" [3, s. 7-8]. Filosof acıma duyğusunun dekadens olduğunu bildirir, yəni zəifliyin qoruyucusu və zəifliyin çoxaldıcısı kimi qiymətləndirir. Nitsşe İsa peyğəmbərin ölümünü acıma duyğusu ilə əlaqələndirir. "Acıma hiçliyə inandırır! "Hiçlik" denməz tabii buna: "ötə" denir, ya da "Tanrı", ya da "Hakiki Hayat" denir [3, s. 8]. Diqqətə çatdırmaq istəyirik ki, bu fikirlər onun "Zərdüşt belə demişdir" əsərinin də əsas ideyasıdır.

Nitsşenin güc ilə bağlı fikirləri sistematiklik daşımadığı üçün, həmçinin "Güc iradəsi" əsərindəki fikirlərin tamamının ona aidliyi fikri ziddiyyətli olduğu üçün onun fikirləri müxtəlif formada şərh edilir. Ancaq Nitsşe "Zərdüşt belə demişdir" əsərində yazırdı ki, harada canlı varsa, orada güc iradəsi var. Yəni əslində güc həyatın özüdür, həyatı yaşamaq üçün bir motivasiyadır. Bu motivasiyanı azaldan ənənəvi dəyərlər, inanclar, yəni xristian əxlaqı, humanizm, axirətə inam hissi, xeyirxah əməllər və romantizmdir. Onun fikrincə, insanı idarə edəcək, güclü edəcək olan onun instinctləridir.

Nitsşe pessimizmin hakim olduğu nihilizmin nə üçün vacib olduğunu belə qeyd edir ki, "mövcud olan dəyərlərin reallıqda nə qədər dəyərli olduğunu anlamaq üçün nihilizmi təcrübə etməmiz lazımdır" [3, s. 22]. Nitsşe nihilizmin yaranmasına səbəb kimi axirətə inam hissinin real dünyanın anlamsızlığına səbəb olmasını, xristian dəyərlərinin, siyasət və iqtisadiyyatın prinsiplərinin saxtalığının inkişafını göstərirdi.

Nitsşeni nihilizmlə bağlayan ana fikirlərdən biri də Tanrının ölməsi ideyasıdır. Nəzərə çatdırmaq istəyirik ki, Nitsşe həyata fərqli rakurslardan yanaşırdı. O, nə danimarkalı filosof Sören Kieergeard (1813-1855), nə də Tolstoy kimi həyatın insana verdiyi problemlərdən, qorxulardan xilası dinə yaxınlaşmaqda görürdü. Əksinə, dini inkar etməklə "Mən"in iradi gücü ilə qorxulara qalib gəlməyi təbliğ edirdi. Filosof yazırdı ki, "Tanrı öldü, onu biz insanlar öldürdük". Bu fikirləri ilə Nitsşe insanların dini kitablarda yazılan Tanrını öldürdüyünü iddia edirdi (Nitsşe bu fikirləri ilə Şopenhaur fəlsəfəsinə yaxınlaşırdı. Şopenhaur insan bədbəxtliyinin səbəbini dində və onun özündə görürdü. İslam dinini "iyrənc təlim" adlandıran Şopenhaur yazırdı ki, "insanın başına gələn ən böyük şərlərin əsas mənbəyi insan özüdür: insan insanın canavarıdır"[2, s. 368]). Nitsşe yazırdı: "İnsanlar Tanrı deyə adlandırdıqları onlara zidd gedən və onlara əzab verən idi; həqiqətən də onların itaətində qəhrəmanlıq çox idi! Onlar da öz Tanrılarını insanı çarmıxa çəkməkdən başqa cür sevə bilmirdilər!" [1, s. 35]. Nitsşe insanı çürük kilsə dəyərlərindən, fəlsəfi təlimlərdən qurtarmaq istəyirdi. İnsanı bu dəyərlərdən, inanclardan qurtarmaq üçün "üstinsan", yaxud fövqəlinsan yaratmaq istəyirdi.

Nitsşe "Zərdüşt belə demişdir" əsərində özünü ildırımın xəbərçisi kimi qələmə verir və bu ildırımın adını da fövqəlinsan, yəni üstinsan elan edirdi. Bu insanın həyat amalı güc istəyidir və bu istək "heyvani" instinktlərdən bəslənirdi. İnsanı heyvan və üstinsan arasında bir ip kimi qələmə verən Nitsşenin yaratdığı bu insanın xüsusiyyətləri:

a. Üstinsan Tanrının öldüyünü qəbul edir və fikirləşir ki, Allah yoxdursa günah da yoxdur. "İndi ən qorxunc şey yaşama qarşı günah işləmək və bilinməzi yaşamdan üstün tutmaqdır".
b. İnsanüstü bir ildırımdır, bir dəlilikdir deyərək üstinsan fikrinin ziddiyyətli tərəfləri olduğunu da diqqətə çatdırır.
c. Üstinsan dəyərlərini özü müəyyənləşdirəcək və bu yolda ən güclü silahı heç bir din yox, iradəsi olacaq.

Filosofun üstinsan ideyası "səbəbə baxanda doğru, nəticəyə baxanda qüsurlu idi". Ziddiyyətli filosof insanı bir cisim kimi təqdim edərək onun hisslərinin-libidonun sıxışdırılmasını düzgün hesab etmirdi. Üstinsan konsepsiyasında freydizmin əsas hərəkətverici qüvvəsi olan libidoların hökmranlığının gücünü görürük. Həyat hadisələrinə yanaşma şəklində ziddiyyətlər olan Nitsşe həyatın anlamsız olduğunu düşünmürdü. Əksinə, axirətə inamsızlığını göstərərək bu həyatın önəmini vurğulayır və özündə mövcud olan dəyərləri anlamayıb, cənnət cəhənnəm qavramlarına inananları çoban adlandırırdı. Nitsşe tənqid edilərkən deyirdi ki, mən bu ağızlara görə deyiləm [4, s. 14]. Könül Bünyadzadə düzgün qeyd edirdi: "Nitsşe qurmağı, yaratmağı dağıtmaqdan, məhv etməkdən ibarətdir" [2, s. 373].

Ədəbiyyatda bu "izm"lə ilk dəfə rus şairi İvan Sergeyeviç Turgenevin 1862-ci ildə rus yazıçısı Vissarian Qriqoryeviç Belinskinin xatirəsinə ithaf olunmuş "Atalar və oğullar" əsərində qarşılaşırıq. XIX əsrdən başlayaraq ədəbiyyatda yenilik və köhnəliyin mübarizəsi "atalar və oğullar" qarşılaşmasında öz əksini tapırdı. Turgenevin əsərində atalar və oğulların, yəni liberal və nihilistlərin konfliktləri timsalında nihilizmin əlamətləri diqqətə çatdırılırdı.

Əsərdəki əsas obrazlardan biri tibb tələbəsi Yevgeni Bazarovdur. Bu obraz Qərbin nəzəri-estetik prinsipinə əsasən, mətnaltı məna ilə deyil, birbaşa yazıçı tərəfindən açıq şəkildə nihilist kimi yaradılmışdır. Əsərdə Bazarov və Arkadi Tibb Akademiyasını bitirən iki yaxın dostdur. Arkadiyə əmisi Pablo Pabloviç Bazarovun nəçi olduğunu soruşarkən o deyir: "O, nihilistdir... Hər bir şeyə tənqidi nöqteyi-nəzər ilə yanaşan adam" [7, s. 184]. Nihilizmi özünə sosial kimlik seçən Bazarov mövcud ənənələri, nəsil instinktini, ailə bağlarını, pozitiv dəyərlərin müdafiəsini tənqid edir, sanki romanda yalnız ənənə və müasirlik, fəlsəfi düşüncələr mübarizə aparmır, həmçinin bir cəmiyyətin robotlaşması-duyğusuzlaşması göstərilir. Romanda Bazarovun nihilist düşüncələri onun Pablo Pabloviçlə dialoqları vasitəsilə açılır.

Əsərdə nihilizm fəlsəfəsi aşağıdakı kimi təqdim edilir.

1. Nihilistlər cəmiyyətin böyük əksəriyyəti tərəfindən doğru və səhv kimi qəbul edilən heç bir prinsipi etiqad kimi qiymətləndirmirlər.

2. Nihilistlər hegelçilər ilə müqayisə olunur (mənim fikrimcə, sol hegelçilər ilə)

3. Nihilistlər yalnız onların mövqelərinə uyğun olan fikirlərlə razılaşırlar. Buna görə də hər şeyi inkar edirlər.

4. Almanlara rəğbət, rus xalqına nifrət hissi

5. Təbiət elmlərini incəsənətdən-ədəbiyyatdan üstün tutmaq. Materialist elmlər əsl elm hesab edilir. Bazarov və Pavel arasındakı dialoqda Bazarov deyir: "Yaxşı bir kimya alimi hər bir şairdən iyirmi qat faydalıdır. İncəsənət – pul, daha artıq babasil qazanmaqdır!".

6. Onlar insanın özü-özünü tərbiyə etməli olduğunu düşünürlər, zamanın insan üzərindəki təsirini isə qəbul etmirlər.

7. Nihilistlərin təbiətə, məntiqə aid fikirləri də fərqlidir. Əsərdə nihilist kimi verilən Bazarov deyir ki, təbiət emalatxanadır, insan isə bu emalatxanada işçi. Məntiq isə mücərrəd bir iş.

8. Fəlsəfəni romantizm hesab edirlər, romantizmdə mənasız bir fikir.

9. Onlar inanırdılar ki, əgər bir nöqsanı müzakirə edib nəticə alınmayacaqsa, bu məsələləri müzakirə etmək lazımsızdır. Buna görə də heç bir işlə məşğul olmaq lazım deyil.

10. Sevgi səfehlik, cəfəngiyyat adlandırılır.

Bazarov əsər boyu güclü şəkildə nihilizm ideyalarını təbliğ etsə də, əsərin sonunda o, Anya Odintsova adında dul qadına aşıq olur. Ancaq sevgisini etiraf etməkdən çəkinir, qadın haqqında deyilən dedi-qodulara inanmaq istəyir. Romanın növbəti hissələrində sevgisini etiraf etsə də, sevgisinə qarşılıq ala bilmir. Bundan sonra Bazarov yoluxucu xəstəliyə tutulur və bu hissə əsərin kulminasiya nöqtəsidir. Bazarovda nihilist ideyalar zəifləməyə başlayır və həyatın reallıqları ilə üz-üzə qalır. Sevgi və ölüm hissi onun ifrat rasionalizmdən və nihilizmin öldürücü soyuqluğundan uzaqlaşdırır. Bazarov Anna Sergeyevnaya deyir: "Mənim işim bitmişdir. Ölüm köhnə şey olsa da, hər bir nəfər üçün yenidir" [7, s. 352]. Əsərin sonunda Bazarov ölür və bu epizod nihilizmin çöküşünü nümayiş etdirir.

Bazarov əsərin başlanğıcında Nitsşe kimi hər şeyi inkar edir, dini və mənəvi dəyərlərin mənasızlığını sübut etməyə çalışırdı. Lakin bu obraz Nitsşedən fərqli olaraq heç bir alternativ göstərmədən sadəcə inkar edirdi, yəni ümumi inkar-sosial nihilizm təqdim olunur. Əsərin sonunda Bazarovun insani hissinə-sevgiyə yenilməsi və ölməsi Turgenevin nihilizm ideyalarının Nitsşenin fəlsəfi nihilizmindən fərqli olaraq daha real olduğunu və reallıqda da bu "izm"in mənasızlığı nümayiş etdirilir.

## ƏDƏBİYYAT

1. Bünyadzadə K. XIX əsr Qərb fəlsəfəsində insan problemi: Kierkegaard – Şopenhauer – Nitsşe // AFSEA Fəlsəfə və sosial-siyasi elmlər, 2013, № 1, s. 28-40.
2. Bünyadzadə K. İnsan: kamilliyin arxitektonikası. Bakı: Zərdabi LTD, 2014, 496 s.
3. Fridrix N. Dəccal. Bakı: Hədəf, 120 s
4. Fridrix N. Güc istenci. İstanbul: Say Yayınları, 2010, 671 s.
5. Friedrich N. Böylə Buyurdu Zerdüşt. İstanbul: İlgi Kültür Sanat Yayıncılıq, 2010, 409 s.
6. İsmayılov F.Q. XX əsr qərb fəlsəfəsi tarixi. Bakı: Təhsil, 1999, 211 s.
7. Turgenev İ.S. Seçilmiş əsərləri: 2 clddə. II c., Bakı: Şərq-Qərb, 2006, 360 s.
8. Бакович В.И. Традиции и взаимодействие искусств. Москва, 1987.
9. Шефтсбери Е.Е. Эстетические опыты / Сост. и перевод Дл.В.Михайлова. Москва: Искусство, l974.

*AMEA* **Naxçı***van Bölməsi*
***E-mail: sabinadnyml@gmail.com***

**Sabina Dunyamaliyeva**

## CHARACTERISTICS OF THE PHILOSOPHY OF NIHILISM AND ITS TRACES IN LITERARY WORKS

The 19th century was a period of integration. It was a time when both science and geographic values formed a unity with one another. The connection between philosophy and creative fields was more noticeable during this period due to the influence of nihilist philosophy, which rejected the criterion of God, on literary thought. The most famous exponent of this theory was Friedrich Wilhelm Nietzsche. The three main ideas present in his works “Thus Spoke Zarathustra” and “The Will to Power” – the will to power, the death of God, and the concept of the superman – linked him to the philosophy of nihilism.

In literature, we first encounter this “ism” in “Fathers and Sons”, written by the Russian writer Ivan Sergeyevich Turgenev in 1862. The image of Bazarov in this work is created as a nihilist not by subtext, but directly by the writer, in accordance with the theoretical and aesthetic principles of the West. Although the character of Bazarov is portrayed as a nihilist, his nihilism differed from that of Nietzsche. While Bazarov, like Nietzsche, denied everything and attempted to prove the futility of religious and moral values, this character, unlike Nietzsche, simply denied without offering any alternative. In other words, the work presents a universal negation – social nihilism. At the end of the work, Bazarov’s defeat by human emotion – love – and his death demonstrate that Turgenev’s nihilistic ideas are more realistic than Nietzsche's philosophical nihilism.

**Keywords:** *nihilism, Nietzsche, will to power, superman, Bazarov.*

**Сабина Дунямалиева**

## ОСОБЕННОСТИ ФИЛОСОФИИ НИГИЛИЗМА И ЕЕ СЛЕДЫ В ЛИТЕРАТУРНЫХ ПРОИЗВЕДЕНИЯХ

XIX век – это период интеграции. Это период времени, когда и науки, и географические ценности образуют единство друг с другом. Связь философии с творческими областями была более заметна в этот период из-за влияния на литературную мысль философии нигилизма, отрицающих критерий Бога. Самый известный представитель этой теории Фридрих Вильгельм Ницше – 3 основные идеи, присутствующие в его произведениях «Так говорил Заратустра» и «Жажда власти» – воля к власти, смерть Бога и концепция сверхчеловека – связывали его с философией нигилизма.

В литературе этот «изм» мы впервые встречаем в произведении «Отцы и дети», написанном русским писателем Иваном Сергеевичем Тургеневым в 1862 году. Образ Базарова в произведении создан как нигилиста не подтекстом, а непосредственно писателем, согласно теоретико-эстетическому принципу Запада. Хотя образ Базарова создан как образ нигилиста, нигилизм Базарова отличался от нигилизма Ницше. Хотя Базаров, как и Ницше, отрицал все и пытался доказать бессмысленность религиозных и нравственных ценностей, этот образ, в отличие от Ницше, просто отрицал, не показывая никакой альтернативы, то есть в произведении представлено всеобщее отрицание – социальный нигилизм. В конце произведения, поражение Базарова человеческим чувством – любовью – и его смерть показывают, что идеи нигилизма Тургенева более реалистичны, чем философский нигилизм Ницше.

**Ключевые слова:** *нигилизм, Ницше, воля к власти, сверхчеловек, Базаров.*

*(Filologiya elimlər doktoru Fərman Xəlilov tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 16.07.2025**
**Son variant 04.09.2025**